# Müdafiə nazirinin müavini 11-ci Pekin Syanşan Forumuna qatılıb






**Çin Xalq Respublikasının paytaxtında 11-ci Pekin Syanşan Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, müdafiə nazirinin müavini, baş direktor Aqil Qurbanovun rəhbərliyi ilə nümayəndə heyəti forumda iştirak məqsədilə Çinə işgüzar səfər edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Çindəki səfirliyindəki büstü ziyarət olunub, önünə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla anılıb.

Sonra Azərbaycan nümayəndə heyəti 11-ci Pekin Syanşan Forumunda iştirak edib.

A.Qurbanov dünyanın 100-dən çox ölkəsinin nazir və digər səviyyədə rəsmiləri, region və beynəlxalq təşkilatlardan rəsmi nümayəndə heyətlərinin iştirak etdiyi forum zamanı Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Don Cun ilə görüşüb. Baş direktor foruma dəvətə görə minnətdarlığını bildirib.

Çinə işgüzar səfər çərçivəsində baş direktor həmçinin Mərkəzi Hərbi Şuranın Silah, Hərbi Texnika və Texnologiya üzrə Əməkdaşlıq İdarəsinin rəisi və Dövlət Müdafiə Sənayesi Kompleksinə daxil olan bir sıra şirkətlərin nümayəndələri ilə görüş keçirib. Görüş zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan.- 2024.- 15 sentyabr (№201).- S.3.